# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin "Zəfər" kitabı çapdan çıxıb

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin xüsusi buraxılışı olan "Zəfər" kitabı nəfis tərtibatla çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, xüsusi buraxılışda yer alan materiallar 44 günün xronikasını - 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrü əhatə edir. Nəşrdə 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müqəddəs savaşın ilk dəqiqələrindən Zəfər Günündək möhtəşəm fəaliyyətindən bəhs edilir.




Kitab Prezident İlham Əliyevin Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi ağır artilleriya silahlarından şiddətli atəşə tutduqdan dərhal sonra - sentyabrın 27-də saat 12:45-də Azərbaycan xalqına müraciətinin mətni ilə başlayır. "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" deyən Prezident İlham Əliyev bu müraciəti ilə Azərbaycanın igid oğullarını torpaqlarımızı işğaldan azad etməyə daha da ruhlandırdı, onları səfərbər etdi, xalqda qələbəyə inam yaratdı.

"Zəfər" kitabında Azərbaycan Prezidentinin 44 gün ərzində müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə telefon danışıqları, videomüraciətləri, aparıcı xarici media orqanlarına müsahibələri, hər bir yaşayış məntəqəmizin azad olunduğu müjdə xəbərləri, sosial şəbəkə hesablarında paylaşımları xronoloji ardıcıllıqla təqdim edilib. Nəşrə 44 gündə rəşadətli ordumuzun, qəhrəman əsgər və zabitlərimizin işğaldan azad etdikləri şəhər və kəndlərin, yaşayış məntəqələrinin, həmçinin erməni qəsbkarlarından götürülmüş qənimət silah-sursatların da siyahısı daxil edilib.

Vətən müharibəsində qazanılan Zəfərin dördüncü ildönümü ərəfəsində təqdim olunan bu nəşr adi kitab deyil, bir dərslikdir - dövlətçilik, vətəndaşlıq, Vətənə sevgi və xidmət dərsliyidir!

Kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından və arxivindəki fotolardan istifadə edilib.

Dövlət başçısının 2020-ci il noyabrın 10-da xalqa müraciətində vurğuladığı kimi, hər kəs bizim gücümüzü gördü, hər kəs bizim "dəmir yumruğ"umuz nədir, anladı. "Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsi artıq bizim qələbəmizin rəmzidir: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

Vətən müharibəsində qazanılan Zəfərin yaratdığı reallıqlar regionda bütün sahələrdə özünü göstərir. İşğaldan azad edilmiş ərazilərimizdə bu gün aparılan bərpa və quruculuq işləri, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla reallaşdırılması, Şuşada keçirilən beynəlxalq tədbirlər Azərbaycan dövlətinin gücünü, xalqımızın əzmini bütün dünyaya bir daha nümayiş etdirir.

Azərbaycan. - 2024.- 6 noyabr (№ 245).- S.3.